# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsin ştat cədvəlinin təsdiq edilməsi haqqında” 2023-cü il 24 oktyabr tarixli 135 nömrəli, “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında” 2024-cü il 1 iyul tarixli 47 nömrəli, “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” 2024-cü il 16 dekabr tarixli 68 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsinin Nizamnaməsinin və ştat cədvəlinin təsdiq edilməsi haqqında” 2020-ci il 15 fevral tarixli 35 nömrəli, “Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyinin nəzarət funksiyasını yerinə yetirən əməkdaşlarının xidməti geyim formasının, fərqləndirmə nişanlarının təsviri və onların daşınması qaydası”nın təsdiq edilməsi haqqında” 2024-cü il 29 dekabr tarixli 72 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin səkkizinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsin ştat cədvəlinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 24 oktyabr tarixli 135 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 iyul tarixli 47 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1. “Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti.”;

2.2. 2-3-cü hissələr ləğv edilsin.

3. “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 dekabr tarixli 68 nömrəli Qərarının 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. “7” rəqəmi “5” rəqəmi ilə əvəz edilsin;

3.2. “Kollegiyanın üzvləri” bölməsi aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavinləri
Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının rəhbəri
“Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru.”.

4. “Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsinin Nizamnaməsinin və ştat cədvəlinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 fevral tarixli 35 nömrəli Qərarı ləğv edilsin.

5. “Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyinin nəzarət funksiyasını yerinə yetirən əməkdaşlarının xidməti geyim formasının, fərqləndirmə nişanlarının təsviri və onların daşınması qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 dekabr tarixli 72 nömrəli Qərarı ləğv edilsin.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 30 ” “ aprel ” 2026-cı il

№ 19